# NAXÇIVAN MR DÖVLƏT ŞƏHƏRSALMA VƏ ARXİTEKTURA KOMİTƏSİ

**Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun hazırlanmış Maliyyə Hesabatları və Müstəqil Auditorun Rəyi**

31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə

**Bakı – Azərbaycan Respublikası**

**31 Dekabr 2024-cü il tarixdə bitən il üzrə**

**Müstəqil Auditor Rəyi və Maliyyə Hesabatları**

## MÜNDƏRİCAT


| | Səhifə |
|---|---|
| Rəhbərliyin Hesabatı | 5 |
| Müstəqil Auditor rəyi | 6-8 |
| Mühasibat Balansı | 9 |
| Mənfəət və Zərər Haqqında Hesabat | 10 |
| Kapitalda Dəyişikliklər Haqqında Hesabat | 11 |
| Pul Vəsaitlərinin Hərəkəti Haqqında Hesabat | 12 |
| Maliyyə Hesabatlarına dair Qeydlər | 13-21 |

**MƏKTUB-ÖHDƏLİK**

iyun 2025-cil il

**NAXÇIVAN MR DÖVLƏT ŞƏHƏRSALMA VƏ ARXİTEKTURA KOMİTƏSİ-nin**
**Sədri cənab İlqar Sadıqova**

**Audit aparılmasının şərtləri**

Sizin NAXÇIVAN MR DÖVLƏT ŞƏHƏRSALMA VƏ ARXİTEKTURA KOMİTƏSİ-nin mühasibat (maliyyə) hesabatlarının auditinin aparılması haqqında təklifinizi qəbul edərək bu məktub-öhdəliklə təsdiq edirik. Audit standartlarına və digər hüquqi-normativ aktlara əsasən 31 dekabr 2024-cü il tarixinə bitən il üzrə balans və gəlirlər-xərclər haqqında hesabatları ilkin sənədlər üzrə seçmə üsulu ilə yoxlanılacaqdır (təqdim olunan sənədlərə əsasən).

Tərəfimizdən audit Azərbaycan Respublikasının qanunvericilik aktlarına və Beynəlxalq Audit Standartlarına (mühasibat hesabatlarının tərtib edilməsi qaydasını və auditorun fəaliyyətini tənzimliyən qanunvericilik və normativ aktlarına) əsasən aparılacaqdır.

Auditin məqsədi 2024-cü il üzrə NAXÇIVAN MR DÖVLƏT ŞƏHƏRSALMA VƏ ARXİTEKTURA KOMİTƏSİ-nin mühasibat (maliyyə) hesabatlarının dürüstlüyü haqqında auditorun fikirini ifadə edən rəy verməkdən ibarətdir.

Biz öz nəticələrimizi əsaslandırmaq üçün, Sizin təşkilatın işçilərinin köməyinə ümid edərək, daxili nəzarətin vəziyyətinin, uçot məlumatlarının yetərliliyinin və dürüstlüyünün yoxlanılmasının bir sıra prosedurlarından və testlərindən istifadə edəcəyik.

Auditin testlərinin seçilmə və digər özünəməxsus xüsusiyyətlərini, auditlə əhatə olunacaq sənədlərin həcminin böyük olmasını nəzərə alaraq, ayrı-ayrı qeyri-müəyyənlik və səhvlərin aşkar edilməməsi riski mövcuddur. Biz mümkün qədər çalışacağıq ki, həmin riski minimuma endirmək mümkün olsun, lakin nəticənin tam dəyərində (auditlə qəbul edilmiş ümumi qaydaya əsasən) zəmanət verə bilmərik. Siz mühasibat uçotu və hesabatlarının qəsdən təhrif edilməsi faktlarının aşkar edilməsi haqqında bizim yazılı hesabatımızda məlumatlandırılacaqsınız.

Biz auditin aparılmasına dair müqavilənin şərtlərinə və “Auditor xidməti haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən göstərdiyimiz xidmətlərə görə məsuliyət daşıyırıq. Sizin təşkilatın kommersiya sirrinə riayət edilməsi üzrə öhdəliyi öz üzərimizə götürürük.

Uçot siyasətinin seçilməsinə və tətbiq edilməsinə, daxili nəzarət və mühasibat yazılarının uyğunluğunun təmin olunmasına, ilkin uçot məlumatlarının düzgün əks etdirilməməsi də daxil edilməklə mühasibat hesabatlarının tərtib edilməsinə görə NAXÇIVAN MR DÖVLƏT ŞƏHƏRSALMA VƏ ARXİTEKTURA KOMİTƏSİ-nin müvafiq şöbəsinin məsuliyyətini Sizin nəzərinizə çatdırırıq. NAXÇIVAN MR DÖVLƏT ŞƏHƏRSALMA VƏ ARXİTEKTURA

KOMİTƏSİ-nin rəhbərliyindən xahiş edirik ki, audit üçün təqdim edilən məlumatların tam və dürüst olmasını rəsmi təsdiq edəsiniz.

Ümidvarıq ki, auditin tam aparılması üçün zəruri olan mühasibat sənədləri və digər məlumatlar sizin işçilər tərəfindən auditorun sərəncamına təqdim olunacaqdır.

Ümid edirik ki, Sizin mühasibat hesabatlarınızın dürüstlüyü haqqında auditorun fikrini dəyişmək məqsədi ilə hər hansı bir formada heç bir təzyiq göstərilməyəcək. Qəbul edilmiş audit normalarına əsasən həmin şərtin pozulması auditin aparılmasına dair müqavilənin vaxtından əvvəl dayandırılması üçün əsasdır.

Göstərilən xidmətlərin dəyərini Sizinlə bağladığımız müqavilədə qeyd olunan razılaşdırılmış məbləğ təşkil edəcəkdir.

Ayrı-ayrı işlərin dəyəri auditorların tələb olunan ixtisas səviyyəsinə və iş təcrübəsinə, məsuliyyət dərəcəsinə müvafiq olaraq dəyişə bilər. Hesablaşmanın həyata keçirilməsi qaydası və müddəti auditin aparılmasına dair müqavilə ilə müəyyən ediləcəkdir.

Xahiş edirik ki, Sizə təqdim olunan mühasibat hesabatlarının dürüstlüyünün auditinə razılıq məktub-öhdəliyin sürətini imza edib, onun məzmununa dair irad və təkliflərinizi bizə göndərəsiniz.

**Azərbaycan Respublikasının Auditorlar Palatasının Audit təşkilatı**

Financial Reporting Center MMC-nin dir[illegible]ov Ramil Yusif oğlu

Financial Reporting Center MMC-nin au[illegible]ru[illegible] Alma[illegible]ov Zaur Tahir oğlu

NAXÇIVAN MR DÖVLƏT ŞƏHƏRSALMA VƏ A[illegible] İTƏSİ

Sədr İlqar Sadıqov Hacıbala oğlu

## 31 DEKABR 2024-CÜ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNİN BƏYANI

Aşağıdakı hesabat NAXÇIVAN MR DÖVLƏT ŞƏHƏRSALMA VƏ ARXİTEKTURA KOMİTƏSİ - nin(bundan sonra Komitə) Maliyyə hesabatları ilə bağlı rəhbərliyin müvafiq məsuliyyətini müstəqil auditorların məsuliyyətindən fərqləndimək məqsədi ilə hazırlanmışdır.

Rəhbərlik, 31 dekabr 2024-cü il tarixinə Komitənin maliyyə vəziyyətini, həmin ildə başa çatmış il üzrə əməliyyat nəticələrini, kapitalda dəyişiklikləri və pul vəsaitərinin hərəkətini əks etdirən Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS") uyğun maliyyə hesabatlarının düzgün hazırlanması üçün məsuliyyət daşıyır.

Maliyyə hesabatlarının hazırlanması zamanı rəhbərlik aşağıda göstərilənlər üzrə məsuliyət daşıyır:

- Uyğun mühasibat prinsiplərinin seçilməsi və mütəmadi olaraq tətbiq edilməsi:
- Məntiqli və məqsədəuyğun təxminlərin və qərarların qəbul edilməsi;
- Maliyyə hesabatlrının MHBS-na müvafiq hazırlanması və ya əgər hər hansı bir kənarlaşma varsa onun maliyyə hesabatlarında bəyan edilməsi və izahı;
- Yaxın gələcəkdə Komitənin işini normal şərtlər altında davam etdirdiyi halda, hesabat tarixinə maliyyə hesabatlarının daimilik prinsipi əsasında hazırlanması.

Rəhbərlik, aşağıdakı məsələlər üzrə məsuliyyət daşıyır:

- Komitə daxilində səmərəli və keyfiyyətli daxili nəzarət sisteminin işlənib hazırlanması, qurulması və möhkəmləndirilməsi;
- Komitənin maliyyə hesabatlarının Maliyyə Hesabatarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq düzgün hazırlanması ve Komitənin maliyyə vəziyyətini istənilən zaman düzgün əks etdirən mühasibat sisteminin təşkil edilməsi;
- Yerli mühasibat sisteminin qanunvericilik və Azərbaycan Respublikasının mühasibat standartlarına uyğun olaraq təşkil edilməsi;
- Mümkün imkanlardan istifadə edərək Komitənin aktivlərinin mühafizə edilməsinin təşkil olunması:
- Saxtakarlıq, yanlışlıq və digər qanuna uyğunsuzluq hallarının müəyyən edilməsi və qarşısının alınması.

31 dekabr 2024-cü il tarixində bitən il üzrə maliyyə hesabatları Komitənin Rəhbərliyi tərəfindən təsdiq edilmişdir.

İlqar Sadıqov

Sədr

NAXÇIVAN MR DÖVLƏT ŞƏHƏRSALMA VƏ ARXİTEKTURA KOMİTƏSİ

## MÜSTƏQİL AUDİTORUN RƏYİ

**NAXÇIVAN MR DÖVLƏT ŞƏHƏRSALMA VƏ ARXİTEKTURA KOMİTƏSİ-nin rəhbərliyinə**

**Rəy**

Biz, NAXÇIVAN MR DÖVLƏT ŞƏHƏRSALMA VƏ ARXİTEKTURA KOMİTƏSİ-nin (bundan sonra Komitə) 31 dekabr 2024-cü il tarixinə təqdim edilən maliyyə vəziyyətinə dair hesabatından, həmin tarixdə başa çatmış il üzrə məcmu gəlir haqqında hesabatından, kapitalda dəyişikliklər hesabatından, pul vəsaitlərinin hərəkəti haqqında hesabatından habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

Hesab edirik ki, əlavə edilmiş maliyyə hesabatları Komitənin 31 dekabr 2024-cü il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Beynəlxalq Maliyyə Hesabatlarına uygun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli şəkildə əks etdirir.

**Rəy üçün Əsaslar**

Biz, auditi Beynəlxalq audit standartlarına (BAS) uygun aparmışıq. Bu standartlar üzrə bizim məhsuliyyətimiz əlavə olaraq hesabatın “Maliyyə hesabatlarının auditi üçün auditorun məhsuliyyəti” bölməsində əks edirilir. Biz maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika standartları Şurasının “Etika məcəlləsinin” (MBESŞ məcəlləsi) tələblərinə uyğun olaraq Komitədan asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə, eləcə də MBESŞ məcəlləsinin tələblərinə uyğun olaraq yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Fəaliyyətin Fasiləsizliyi**

Əlavə edilmiş maliyyə hesabatları fəaliyyətin fasiləsizliyi prinsipi əsasında hazırlanmışdır. Hesabatları hazırlayarkən menecment Komitənin fasiləsizlik prinsipinə əsasən fəaliyyətini həyata keçirmə qabiliyyətini qiymətləndirmişdir. Menecment Komitənin fasiləsizlik prinsipinə əsasən fəaliyyətini davam etdirməsinə şübhə yarada biləcək, onları hadisələrlə və vəziyyətlə bağlı qeyri-məyyənliklərin olmasına inandıracaq hər hansı sübutla qarşılaşmamışdır.

**Maliyyə Hesabatları üzrə Rəhbərliyin və İdarəetmə Səlahiyyəti Verilmiş Məsul Şəxslərin Məhsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının Beynəlxalq Maliyyə Hesabatları Standartlarına uygun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya

səhvlər nəticəsində əhəmiyyətli təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik İnstututu ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud da bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Komitənin fasiləsiz fəliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunda fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimizin də daxil olduğu auditor hesabatını təqdim etməkdir. Kafi əminlik, əminliyin yüksək səviyyəsidir, lakin, o BAS-lara uygun aparılmış auditin əhəmiyyətli təhrifləri hər bir halda aşkar ediləcəyinə zəmanət vermir. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı oldugu halda əhəmiyyətli hesab edilir.

Audit zamanı biz BAS-ın tələblərinə uyğun olaraq aparılmış auditin bir hissəsi kimi peşəkar mühakimə tətbiq edir və peşəkar skeptisizm nümayiş etdiririk. Biz həmçinin:

- Dələduzluq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq, maliyyə hesabatlarının əhəmiyyətli təhrifləri riskini aşkar edir və qiymətləndirir, həmin risklərə uyğun audit prosedurlarını layihələndirərək həyata keçirir, rəyimizi bildirmək üçün yetərli və müvafiq audit sübutları əldə edirik. Dələduzluq nəticəsində yaranmış əhəmiyyətli təhriflərin aşkarlanmaması riski səhv nəticəsində yaranmış əhəmiyyətli təhriflətin aşkarlanmaması riskindən daha yüksəkdir, çünki dələduzluq gizli sövdələşmə, saxtakarlıq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına posulmasından ibarət ola bilər.
- Auditlə bağlı daxili nəzarətə Komitənin daxili nəzarət sisteminin səmərəliliyinə dair rəyin bildirilməsi üçün deyil, şəraitə uyğun olan audit prosedurlarının işlənib hazırlanması üçün daxili nəzarət sistemi barədə anlayış əldə edirik.
- İstifadə edilmiş uçot siyasətinin məqsədəuyğunluğunun və rəhbərlik tərəfindən aparılmış uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlamasının məqsədəuyğunluluğunu qiymətləndiririk.
- Rəhbərlik tərəfindən mühasibat uçotunun faziləsiz aparılma prinsipinin istifadə edilməsinin məqsədəuyğunluğunun və əldə edilən audit sübutları əsasında Komitənin fəaliyyətini fasiləsiz davam etdirmək imkanını ciddi şübhə altına qoya bilən hadisə və ya şərtlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin müvcud olub-olmadığına dair nəticə çıxarırıq. Əhəmiyyətli qeyri-üəyyənliyin mövcud olması barədə nəticə çıxardığımız halda, auditor hesabatlarımızda maliyyə hesabatlarındakı əlaqəli məlumatların açıqlamasına diqqət yetirməli və ya belə məlumatların açıqlaması kifayət etmədiyi halda, rəyimizə dəyişiklik etməliyik. Gəldiyimiz nəticələr auditor hesabatımızın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Bununla belə, gələcək hadisə və ya şərtlər Komitənin fasiləsizlik prinsipi əsasında rəyimizin hazırlandığı tarixədək əldə edilmiş sübutlara əsaslanır.

- Məlumatların açıqlanması da daxil olmaqla, maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin maliyyə hesabatlarında ədalətli şəkildə əks etdirilib-etdirilməməsini dəyərləndiririk.

Biz, idarəetmə üzrə cavabdeh olan səlahiyyətli şəxslərə digər məsələlərlə yanaşı, planlaşdırılan audit prosedurlarının həcmi və müddəti, habelə əhəmiyyətli audit nəticələrin, o cümlədən audit zamanı daxili nəzarət sistemində aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar barədə məlumat veririk.

23 sentyabr 2025-cil il
Bakı Azərbaycan Respublikası
E-mail: info@frc.az
Tel: 051 555 34 44

Financial Reporting Center MMC-nin direktoru Qəd[illegible]ov Ramil Yusif oğlu

Financial Reporting Center MMC-nin auditoru Almazov Zaur Tahir oğlu

Azərbaycan Respublikası Auditorlar
Palatası Tərəfindən verilmiş İCAZƏ: AT/312 13.09.2024-cü il

**NAXÇIVAN MR DÖVLƏT ŞƏHƏRSALMA VƏ ARXİTEKTURA KOMİTƏSİ**
**MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT**
**31 dekabr 2024-cü il tarixinə**
*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər Azərbaycan Manatı ilə ifadə edilir)*

| | Qeyd | 31 dekabr 2024 | 31 dekabr 2023 |
|---|---|---|---|
| ***AKTİVLƏR*** | | | |
| **Uzunmüddətli aktivlər** | | | |
| Qeyri-maddi aktivlər | 4 | 754 | |
| Torpaq, tikili və avadanlıqlar | 4 | 1 554 031 | 1 614 372 |
| **Cəmi uzunmüddətli aktivlər** | | **1 554 785** | **1 614 372** |
| | | | |
| **Qısamüddətli aktivlər** | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 5 | 102 521 | 189 868 |
| **Cəmi qısa müddətli aktivlər** | | **102 521** | **189 868** |
| **Cəmi aktivlər** | | **1 657 306** | **1 804 240** |
| | | | |
| ***KAPİTAL VƏ ÖHDƏLİKLƏR*** | | | |
| ***Kapital*** | | | |
| Kapital ehtiyatları | 6 | 1 614 372 | 1 628 972 |
| Cari ilin mənfəəti | 6 | (60 009) | (14 600) |
| **Cəmi Kapital** | | **1 554 363** | **1 614 372** |
| | | | |
| **Uzunmüddətli öhdəliklər** | | | |
| **Cəmi uzunmüddətli öhdəliklər** | | **0** | **0** |
| | | | |
| **Qısamüddətli öhdəliklər** | | | |
| Qısamüddətli kreditor borcları | 7 | 421 | |
| Sair qısamüddətli öhdəlikləri | 7 | 102 521 | 189 867 |
| **Cəmi qısamüddətli öhdəliklər** | | **102 943** | **189 867** |
| **Cəmi öhdəliklər** | | **102 943** | **189 867** |
| **Cəmi kapital və öhdəliklər** | | **1 657 306** | **1 804 240** |

**Qeydlər bu maliyyə hesabatlarının tərkib hissəsidir.**

**Auditor rəyi 4-6-cı səhifələrdə öz əksini tapmışdır.**

Səhifə 9 [illegible] Rəhbər tərəfindən təsdiq edilmiş və onun adından imzala[illegible]

Rəhbər: [illegible]

Maliyyə və mühasibat uçotu sektorunun müdiri,

Maliyyə və təminat şöbəsinin müdiri

v.m.i.e: Səfərli Nurlan

**NAXÇIVAN MR DÖVLƏT ŞƏHƏRSALMA VƏ ARXİTEKTURA KOMİTƏSİ**
**MƏNFƏƏT VƏ YA ZƏRƏR VƏ DİGƏR MƏCMU GƏLİRLƏR HAQQINDA HESABAT**
**31 dekabr 2024-ci il tarixində başa çatan il üzrə**
*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər Azərbaycan Manatı ilə ifadə edilir)*

| | Qeyd | 2024 | 2023 |
|---|---|---|---|
| Əsas əməliyyat gəlirlər | 8 | 2 537 241 | 56 346 516 |
| Satışın maya dəyəri üzrə xərclər | 9 | (1 741 076) | (55 574 504) |
| **Ümumi mənfəət (zərər)** | | **796 165** | **772 012** |
| İnzibati xərclər | 9 | (684 991) | (689 817) |
| Sair əməliyyat xərcləri | 9 | (105 533) | (82 195) |
| **Əməliyyat mənfəəti (zərəri)** | | **5 641** | **0** |
| Amortizasiya ayırmaları | 4 | (65 650) | (14 600) |
| **Vergiqoymadan əvvəl mənfəət (zərər)** | | (60 009) | (14 600) |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | | **(60 009)** | **(14 600)** |
| **O cümlədən** | | | |
| qeyri-nəzarət payları üzrə xalis mənfəət (zərər) | | | |
| əsas cəmiyyətin sahiblərinin mənfəəti (zərəri) | | **(60 009)** | **(14 600)** |

**Qeydlər bu maliyyə hesabatlarının tərkib hissəsidir.**

**Auditor rəyi 4-6-cı səhifələrdə öz əksini tapmışdır.**

Səhifə 9-23-də olan maliyyə hesabatları Rəhbər tərəfindən təsdiq edilmiş və onun adından imzalanmışıdr.

Rəhbər: İlqar Sadıqov

Maliyyə və mühasibat uçotu sektorunun müdiri,

Maliyyə və təminat şövəsinin müdiri

v.m.i.e: Səfərli Nurlan

| | Qeyd | Kapital ehtiyatları | Bölüşdürülməmiş mənfəət | Cəmi kapital |
|---|---|---|---|---|
| **1 yanvar 2023-cü il tarixinə** | | **1 628 972** | **-** | **1 628 972** |
| Xalis aktivlərdə (kapitalda) artma (azalma) | 6 | | 14 600 | 14 600 |
| Hesabat dövründə xalis mənfəət(zərər) | 6 | | (14 600) | (14 600) |
| Kapitalın maddələri arasında köçürmələr | 6 | (14 600) | | (14 600) |
| **2023-cü il üzrə kapitalda dəyişikliklərin cəmi** | | (14 600) | - | (14 600) |
| **31 dekabr 2023-cü il tarixinə qalıq** | | **1 614 373** | **-** | **1 614 373** |
| Xalis aktivlərdə (kapitalda) artma (azalma) | 6 | | 60 009 | 60 009 |
| Hesabat dövründə xalis mənfəət(zərər) | 6 | | (60 009) | (60 009) |
| Kapitalın maddələri arasında köçürmələr | 6 | (60 009) | | (60 009) |
| **Hesabat dövrü üzrə kapitalda dəyişikliklər cəmi** | | **(60 009)** | **-** | **(60 009)** |
| **31 dekabr 2024-cü il tarixinə qalıq** | | **1 554 363** | **-** | **1 554 363** |

**Qeydlər bu maliyyə hesabatlarının tərkib hissəsidir**

**Auditor rəyi 4-6-cı səhifələrdə öz əksini tapmışdır.**

Səhifə 9-23-də olan maliyyə hesabatları Rəhbər tərəfindən təsdiq edilmiş və onun adından imzalanmışdır.

Rəhbər: İlqar Sadıqov

Maliyyə və mühasibat uçotu sektorunun müdiri,
Maliyyə və təminat şövəsinin müdiri

v.m.i.e: Səfərli Nurlan

**NAXÇIVAN MR DÖVLƏT ŞƏHƏRSALMA VƏ ARXİTEKTURA KOMİTƏSİ**
**PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT**
**31 dekabr 2024-ci il tarixində başa çatan il üzrə**
*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər Azərbaycan Manatı ilə ifadə edilir)*

| | Qeyd | 2024 |
|---|---|---|
| **Əməliyyat fəaliyyəti ilə bağlı pul axınları:** | | |
| Hesabat dövrü üzrə vergiqoymadan əvvəlki mənfəət/(zərər) | | (60 009) |
| Aşağıdakı maddələr üzrə düzəlişlər: | | |
| Torpaq, tikili və avadanlıqların amortizasiyası | 4 | 65 650 |
| Qeyri-maddi aktivlərin amortizasiyası | 4 | - |
| **Əməliyyat aktiv və öhdəliklərində dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyətindən pul axınları** | | **5 641** |
| **Əməliyyat aktivlərində (artım)/azalma:** | | |
| Qısamüddətli kreditor borcları | 7 | 421 |
| Sair qısamüddətli aktivlər | 7 | (87 346) |
| **Əməliyyat fəaliyyətindən əldə edilən pul axınları** | | **(81 284)** |
| **İnvestisiya fəaliyyəti ilə bağlı pul axınları** | | |
| Əmlak və avadanlığın əldə edilməsi | 4 | (5 308) |
| Qeyri-madi aktivlərin alınması üzrə ödənişlər | 4 | (754) |
| **İnvestisiya fəaliyyətindən əldə edilən xalis pul axınları** | | **(6 062)** |
| **Maliyyə fəaliyyəti ilə bağlı pul axınları** | | |
| **Maliyyə fəaliyyətindən əldə edilən xalis pul axınları** | | **-** |
| **Pul vəsaitləri və onların ekvivalentlərində xalis (azalma)/artım** | | **(87 346)** |
| **İlin əvvəlinə pul vəsaitləri və onların ekvivalentləri** | 5 | **189 867** |
| **İlin sonuna pul vəsaitləri və onların ekvivalentləri** | 5 | **102 521** |

**Qeydlər bu maliyyə hesabatlarının tərkib hissəsidir**

**Auditor rəyi 4-6-cı səhifələrdə öz əksini tapmışdır.**

Səhif... Rəhbər tərəfindən təsdiq edilmiş və onun adından imz...

Rəhbər: İl...

Maliyyə və mühasibat uçotu sektorunun müdiri,
Maliyyə və təminat şöвəsinin müdiri

v.m.i.e: Səfərli Nurlan

## 1. ÜMUMİ MƏLUMAT

Azərbaycan Respublikası Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dövlət idarəetmə strukturunun təkmilləşdirilməsi məqsədilə imzaladığı 28 fevral 2006-cı il tarixli Sərəncamına və qanunvericiliyə uyğun olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 23 mart 2006-cı il tarixli 16-III FR nömrəli Fərmanı ilə Naxçıvan Muxtar Respublikasının Dövlət Tikinti və Memarlıq Komitəsi ləğv edilərək onun bazasında yaradılmışdır. Ləğv edilmiş Naxçıvan Muxtar Respublikasının Dövlət Tikinti və Memarlıq Komitəsinin tikinti sahəsindəki funksiyaları Naxçıvan Muxtar Respublikasının Fövqəladə Hallar Nazirliyinə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2007-ci il 20 noyabr tarixli 93-III FR nömrəli Fərmanı ilə Naxçıvan Muxtar Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi haqqında Əsasnamə, komitənin strukturu təsdiq edilmiş və aparatın işçilərinin say həddi müəyyən edilmişdir. Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi haqqında əsasnaməyə əsasən Komitə Naxçıvan Muxtar Respublikası ərazisində şəhərsalma, ərazi planlaşdırılması, arxitektura və bununla bağlı layihələndirmə sahələrində dövlət siyasətini və tənzimlənməsini həyata keçirən Komitəi icra hakimiyyəti orqanıdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 23 avqust 2023-cü il tarixli 196-VI FR nömrəli Fərmanı ilə Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin yeni əsasnaməsi təsdiq edilmiş, Komitənin strukturunda dəyişiklik edilmiş, Komitənin tabeliyində olan Layihə-Smeta Qrupunun əsasında publik hüquqi şəxs statuslu Layihə Planlaşdırma Komitəi yaradılmış və Komitənin nizamnaməsi təsdiq edilmişdir. Şəhərsalma, ərazi planlaşdırılması və arxitektura sahələrində xidmətlər göstərən, dövlət siyasətinin həyata keçirilməsində iştirak edən Layihə Planlaşdırma Komitəi Komitənin strukturuna daxil olmayan tabeliyindəki qurumlarına daxildir.

Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi Naxçıvan Muxtar Respublikası ərazisində müvafiq sahədə vahid dövlət siyasətinin formalaşmasında iştirak edərək bu siyasətin həyata keçirilməsini, müvafiq sahənin inkişafını təmin edərək ərazi planlaşdırılması sənədlərinin hazırlanması və həmin sənədlərin tələblərinə əməl edilməsinə dövlət nəzarətini, müvafiq sahədə normayaratma fəaliyyətini həyata keçirir. Komitə şəhərsalma və milli memarlıq ənənələrinin (irsinin) qorunub saxlanılmasını, müvafiq icra hakimiyyəti və yerli özünüidarəetmə orqanları ilə birlikdə şəhərlərin, onların ətrafında tarixən təşəkkül tapmış yaşayış məskənlərinin təbii və yerli xüsusiyyətləri nəzərə alınmaqla, onların ərazilərindən səmərəli istifadə edilməsini təmin edir. Həmçinin muxtar respublika üzrə qanunvericiliklə müəyyən olunmuş qaydada şəhərsalma kadastrının aparılması, bina, qurğu və komplekslərin memarlıq planlaşdırma həllərinin səviyyəsinin yüksəldilməsini təmin etmək, onların şəhərsalma və tikinti normalarına uyğun işlənilməsinə nəzarət və qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin işinə daxildir.

Komitənin hüquqi ünvanı: Naxçıvan şəhəri, Nizami, 30

## 2. ƏMƏLİYYAT MÜHİTİ

Komitə inkişaf etməkdə olan bazarın xüsusiyyətlərini özündə əks etdirən Azərbaycanın inkişafda olan bazar iqtisadiyyatının xüsusiyyətləri ilə səciyyələnən iqtisadi və maliyyə mühitinin təsirlərinə məruz qalır. Hüquqi, vergi və normativ baza və rejimlərin inkişafı davam edir, lakin onların müddəaları həm fərqli şərh olunur, həm də tez-tez dəyişdirilir. Bütün bunların və sair hüquqi və vergi maneələri nəticəsində Azərbaycan Respublikasında fəaliyyət göstərən müəssisələr müxtəlif çətinliklərlə üzləşir.

Azərbaycan iqtisadiyyatı neft və qazın qiymətlərin səviyyəsindən əhəmiyyətli dərəcədə asılıdır. Son illərdə Azərbaycan hökuməti daha balanslaşdırılmış iqtisadiyyata keçidi tezləşdirmək və neft-qaz sektorundan asılılığı azaltmaq məqsədilə böyük iqtisadi və sosial islahatları davam etdirmişdir.

Minimum əmək haqqı Prezident İlham Əliyevin 23 dekabr 2024-cü il tarixli Sərəncamına əsasən minimum aylıq əməkhaqqının məbləği 2025-ci il yanvarın 1-dən 400 manat müəyyən edilib. Belə ki, 2024-cü ildə minimum əmək haqqı 345 manat olub.

2024-cü ildə ölkədə 126,3 milyard manatlıq və ya əvvəlki illə müqayisədə 4,1 faiz çox ümumi daxili məhsul istehsal olunmuşdur. İqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 0,3 faiz, qeyri neft-qaz sektorunda isə 6,2 faiz artmışdır. ÜDM istehsalının 35,9 faizi sənaye, 10,7 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 7,0 faizi nəqliyyat və anbar təsərrüfatı, 6,7 faizi tikinti, 5,7 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,4 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,9 faizi informasiya və rabitə sahələrinin, 19,9 faizi digər sahələrin payına düşmüş, məhsula və idxala xalis vergilər ÜDM-in 9,8 faizini təşkil etmişdir. Əhalinin hər nəfərinə düşən ÜDM 12382,5 manata bərabər olmuşdur.

Qarabağ regionunda atəşkəs razılaşmasının davam etməsi biznes mühitinə də müsbət təsir göstərir, belə ki, investisiyaların cəlb edilməsi və işğaldan azad edilmiş ərazilərin inkişafı üçün hökümət tərəfindən həyata keçirilən bir sıra layihələr mövcuddur.

Azərbaycan Respublikasının gələcək iqtisadi artımı daha çox vergi, hüquqi, tənzimləyici və siyasi hadisələrlə yanaşı, hökumətin həyata keçirdiyi iqtisadi, maliyyə və monetar tədbirlərin effektivliyindən asılıdır.

## 3. MALİYYƏ HESABATLARININ HAZIRLANMASININ ƏSASI VƏ MÜHÜM MÜHASİBAT UÇOTU PRİNSİPLƏRİ

Maliyyə hesabatları Mühasibat Uçotunun Beynəlxalq Standartları Şurası ("MUBSŞ") tərəfindən dərc edilmiş Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") uyğun olaraq hazırlanmışdır. Bu konsolidə edilmiş maliyyə hesabatlarının hazırlanmasında tətbiq edilmiş əsas uçot prinsipləri aşağıda təqdim edilir. Bu prinsiplər təqdim edilmiş bütün dövrlərə ardıcıl şəkildə tətbiq edilmişdir.

### Qiymətləndirmələr

Komitənin uçot siyasətlərinin tətbiqi prosessində rəhbərlik maliyyə hesablarında tanınmış məbləglərə çox əhəmiyyətli təsiri olan aşagıdakı qiymətləndirmələri həyata kecirmişdir:

**Əməliyyat gəliri**

Rəhbərlik belə hesab edirki, gəlirin tanınması üçün əsas amil BMUS 18-də göstərilmişdir: Gəlir əməliyyatla bağlı iqtisadi səmərənin daxil olması ehtimal olunduqda tanınır. Müştəri tərəfində öhdəlik qəbul edilərsə, iqtisadi səmərə artıq ötürülmüşdür və belə şəraitdə gəlirin tanlnması mümkündür.

**Ehtimal və fərziyyələr**

Növbəti maliyyə ili cərçivəsində, balans hesabatı tarixinə aktiv və öhdəliklərin balans dəyərinə əhəmiyyətli mənbəyin təşkil edən əsas fərziyyələr aşagıdakılardır:

**Torpaq, tikili və avadanlıqlar**

Torpaq, tikili və avadanlıqlar faydalı istfadə müddəti üzrə amortizasiya olunur. Faydalı istifadə müddəti isə torpaq, tikili və avadanlıqların gözlənilən istifadə sxeminə, istismar amillərindən asılı olan fiziki köhnəlməsinə əsasən formalaşır.

**Şübhəli borclar üzrə ehtiyyatlar**

Şübhəli borclar üzrə ehtiyyatlar debitor borcların qaytarılması hallarının nəzərə alınması ilə çox göstərilməsindən (şişirdilməsindən) əmin olmaq üçün bir sıra amillərə əsaslanaraq müəyyən edilir. Ümidsiz borclar üzrə ehtiyyatlar bütün müştərilər üzrə müxtəlif amillər əsasında yaradılır. Bu amillərə debitor borcların ümumi keyfiyyəti və onların müddətlər üzrə bölgüsü və müştərinin özünün öhdəliklərinin ödəmə qabiliyyətinin olmamasını müəyyən edərsə, məsələn, müştərinin əməliyyat nəticələrində və maliyyə vəziyyətində pisləşmə müşhidə olunarsa, bu zaman həmin müşahidələr üzrə xüsusi ehtiyyatlar yaradılır.

**Aktivlərin qiymətdən düşməsi**

Torpaq, tikili və avadanlıqların əgər hadisə və şəraitdəki dəyişikliklər göstərsə ki, aktivin balans dəyəri bərpa edilə bilinmir, o zaman qiymətdən düşməsinin olub-olmamasının müəyyən olunması üçün nəzərdən keçirilir. Aktivin balans dəyəri onun bərpa olunan dəyərindən cox olarsa, o zaman mənfəət və zərər haqqında hesabatda qiymətdəndüşmə üzrə zərər tanınır.

Hər bir hesabat tarixində aktivlər onların qiymətdən düşə biləcək hər hansı göstəricisinin olub-olmamasını müəyyən etmək üçün qiymətləndirilir. Əgər belə göstərici mövcuddursa, həmin aktivin ehtimal edilən bərpa dəyəri müəyyən olunur. Mənfəət və zərər haqqında hesabatda qiymətdəndüşmə üzrə zərər tanınır.

**Vergi qoyma**

Mənfəət vergisi üzrə xərclərə cari və təxirə salınmış vergi xərcləri daxildir. Vergitutulan mənfəət Mənfəət və Zərər haqqında hesabat göstərilən ucot mənfətindən fərqlənir, çünki, uçot mənfəətinə gələcək illərdə vergiyə cəlb olunacaq və ya xərc maddələrini, həmçinin heç vaxt vergiyə cəlb olunmayacaq və ya əvəzləşdirilməyəcək maddələr daxildir. Komitənin cari vergi xərcləri balans hesabatı tarixinə təyin olunmuş vergi dərəcəsi ilə hesablanmışdır.

Təxirə salınmış vergi maliyyə hesabatlarındakı aktiv və öhdəliklərin balans dəyəri ilə vergitutulan mənfəətin hesablanması üçün istifadə edilən vergi bazası arasındakı fərq üzrə ödənilməli və ya bərpa edilən vergi məbləğidir və vergi bazası müvafiq vergitutulan mənfəətin

hesablanması üçün istifadə edilmişdir. Təxirəsalınmış vergi öhdəlikləri ümumilikdə bütün vergi tutulan müvəqqəti fərqlər üçün və təxirə salınmış vergi aktivləri isə yalnız çıxarılan müvəqqəti fərqlərlə bağlı gələcəkdə bərpa olunmalı vergiyə cəlb olunan mənfəət səviyyəsində tanınır. Belə aktiv və öhdəliklər müvəqqəti fərqlər vergi tutulan mənfəətin və ucot mənfəətinə təsir göstərən digər aktiv və öhdəliklərin ilkin tanınmasından yaranarsa tanınmır. Təxirə salınmış vergi aktivləri hər hesabat tarixində nəzərdən keçirilir.

Azərbaycan Respublikası Vergi Məcəlləsinin müvafiq vergi tələblərinə tam olaraq riayət etdiyindən maliyyə hesabatlarında müvəqqəti fərqlər yaranmır.

Azərbaycan Respublikası Vergi Məcəlləsinə uygun olaraq Komitənin fəaliyyətində tətbiq edilən müxtəlif vergi növləri vardır. Bu vergilər əməliyyat xərclərinin tərkib hissəsi kimi Mənfəət və Zərər haqqında hesabatda əks olunmuşdur.

**Maliyyə icarəsi**

Maliyyə icarəsi aktiv üzrə mülkiyyət hüquqlarına bütün risk və mükafatların ötürülməsini təmin edən icarə növüdür. Mülkiyyət hüququ həm keçə, həm də keçməyə bilər. İcarənin maliyyə və əməliyyat icarəsi olması icarə müqaviləsinin formasından deyil əməliyyatın məzmunundan asılıdır.

İcarə aşağıdakı şərtlər yerinə yetirildiyi halda, maliyyə icarəsi kimi təsnifləndirilmişdir.

İcarə müqaviləsinin sonunda icarəyə verilmiş aktiv üzrə mülkiyyət hüququ icarəçiyə keçir.

İcarəçinin, aktivi ədalətli dəyərindən əhəmiyyətli dərəcədə aşağı olacağı gözlənilən qiymətə almaq hüququ həmin hüququn reallaşma tarixinə mövcuddur və icarəçinin həmin hüquqdan istifadə edəcəyini icarə müddətinin əvvəlində əsaslandırılmış şəkildə bildirmək mümkündür;

İcarə müddəti, hətta əgər mülkiyyət hüququ ötürülmürsə belə, aktivin faydalı istifadə müddətinin əhəmiyyətli dərəcədə böyük hissəsini təşkil edir.

İcarə şərtlərinin qəbul edilməsi tarixində minimal icarə ödənişlərinin diskontlaşdırılmış dəyəri, icarəyə verilən aktivin heç olmasa ədalətli dəyərinə bərabərdir.

İcarədə olan aktiv elə səciyyəvi xüsusiyyətə malikdir ki, xüsusi modifikasiya edilmədən, yalnız icarəçi bu aktivdən istifadə edə bilər.

İcarə müqaviləsinin başlanması tarixində Komitə icarədar kimi maliyyə icarəsini balansda müqavilə tarixinə müqavilə obyektinin ədalətli dəyəri və minimal icarə ödənişlərinin diskontlaşdırılmış dəyərindən az olanının məbləğində aktiv və öhdəlik tanıyır. Daha sonra minimal icarə ödənişləri maliyyə məsrəfləri və ödənilməmiş öhdəliklərin azalması arasında bölüşdürülür. Şərti icarə ödənişləri onların yarandığı dövrdə xərc kimi tanınır.

İcarə müqaviləsinin baglanması tarixində Komitə icarədar kimi maliyyə icarəsini balansda müqavilə tarixinə müqavilə obyektinin ədalətli dəyəri və minimal icarə ödənişlərinin diskontlaşdırılmış dəyərindən az olanının məblegində aktiv və öhdəlik tanıyır. Daha sonra minimal icarə ödənişləri maliyyə məsrəfləri və ödənilməmiş öhdəliklərin azalması arasında bölüşdürülür. Şərti icarə ödənişləri onların yarandıgı dövrdə xərc kimi tanınır. Maliyyə icarəsinə götürülmüş aktivlər üzrə amortizasiya siyasəti mülkiyyətdə olan torpaq, tikili və avadanlıqların amoritizasiyası siyasəti ilə eynidir.

Maliyyə ödənişlərinin faiz hissəsi aid olduğu dövrdə mənfəət və zərər haqqında hesabatda əks olunur.

**Gəlirin tanınması**

Məhsulların satışından gəlir aşağıdakı şərtlər yerinə yetirilərsə tanına bilər:

- Müəssisə məhsulların mülkiyyət hüquqi ilə bağlı əhəmiyyətli risk və mükafatları alıcıya ötürmüşdür;
- Müəssisə mülkiyyət hüquqi ilə bağlı idarəetmədə artıq iştirak etmir və satılmış mallara faktiki nəzarəti saxlamır;
- Gəlir məbləği düzgün qiymətləndirilə bilinir;
- Müəssisəyə əməliyyatla baglı iqtisadi səmərənin daxil olacağı ehtimal olunur;
- Əməliyyatla bağlı çəkilmiş və ya cəkilməli xərcləri düzgün qiymətləndirmək mümkündür.

**Maliyyə xərcləri**

Maliyyə xərcləri mənfəət və zərər haqqında hesabatlarda onların yarandığı dövr tanınır.

**Əmək fəaliyyətinin başa çatmasından sonra mükafatlar**

Balans tarixinə əmək fəaliyyətinin başa çatmasına görə mükafatlar hesabat tarixinə işçilərin iş stajına cari və cari əsas əmək haqqına əsasən Azərbaycan Respublikası Əmək qanunvericiliyinə uyğun olaraq hesablanır. İşdən çıxma üzrə müavinətlər yarandığı zaman xərc kimi tanınır.

**Qiymətləndirilmiş ehtiyatlar**

Qiymətləndirilmiş ehtiyatlar keçmiş hadisələrin nəticəsi olan öhdəliklərə (hüquqi və kollektiv) sahib olduqda öhdəliyin yerinə yetirilməsi üçün iqtisadi səmərələri təcəssüm etdirən resursların tələb olunacağı ehtimal olunduqda və öhdəliyin məbləği etibarlı qiymətləndirilə bildikdə öhdəlik kimi tanınır.

**Xarici valyutalar**

Xarici valyutada həyata keçirilən əməliyyat ilkin tanınma zamanı əməliyyat valyutasında, xarici valyutada olan məbləğə əməliyyat valyutası ilə xarici xalyuta arasında əməliyyatın keçirildiyi tarixdə mövcud olan spot məzənnəsini tətbiq etməklə uçota alınır.

Balans hesabatı tarixinə xarici valyuta ilə olan monetar maddələr hesabat tarixinə məzənnədən istifadə etməklə yerli valyutaya çevrilir. Məzənnə fərqlərindən yaranan gəlir və xərclər Mənfəət və Zərər haqqında hesabatda əks olunur.

Komitə tərəfindən maliyyə hesabatlarının hazırlanması üçün hesabat dövrünün sonunda istifadə edilmiş məzənnələr aşağıdakı kimi olmuşdur:

1 USD = 1.7000 AZN

1 EUR = 1.7724 AZN

100 RUR = 1.6318 AZN

Xarici valyuta ilə olan qeyri-monetar maddələr ədalətli dəyərin təyin edildiyi tarixdə mövcud

olan məzənnəyə əsasən yerli valyutaya çevrilir.

**Maliyyə alətləri**

Maliyyə aktivləri və öhdəlikləri mühasibat balansında yalnız maliyyə alətinin müqavilə müddəalarına tərəf olan kimi tanınır.

İlkin tanınmadan sonra maliyyə aktivləri (ı) birbaşa mənfəət və zərərdə ədalətli dəyərlə əks olunan; (ıı) müddəti başa çatmış investisiyalar; (ııı) Kreditlər debitorlar; və (ıv) satış üçün sərəncamda olan maliyyə aktivləri kimi təsnifləşdirilir.

Müddəti başa çatmış investisiyalar, kreditlər və debitorlarda olduğu kimi qalıq dəyəri ilə əks olunur, effektiv faiz dərəcəsi ilə hesablanmaqla yaranan gəlir, mənfəət və zərər haqqında hesabatda tanınır.

Balans tarixində maliyyə aktivinin və maliyyə aktivləri qrupunun qiymətdən düşməsini müəyyənetmək üçün onlar qiymətləndirilir.

Əgər aktivlər amortizasiya edilmiş dəyər ilə uçota alınıbsa, qiymətdən düşmə, aktivin ilkin dəyəri və maliyyə aktivinin ilkin tanımada tətbiq edilən həmin effektiv faiz dərəcəsi ilə hesablanmış nəzərdə tutulan gələcək nəğd pul hərəkətinin diskontlaşdırılmış dəyəri ilə arasındakı fərq kimi ölçülür. Lakin maliyyə aktivlərinin ədalətli dəyərini müəyyən etmək

mümkün deyilsə və onlar ilkin dəyəri ilə uçota alınıbsa, qiymətdəndüşmə zərəri maliyyə aktivini ilkin dəyəri və bu cür maliyyə aktivi üçün cari bazar mənfəəti normasında hesablanmış gözlənilən gələcək pul vəsaitlərinin diskontlaşdırılmış dəyəri arasında fərq kimi müəyyən edilir.

Satış üçün mövcud olan maliyyə aktivlərinin ədalətli dəyərindəki dəyişikliklərdən yaranan gəlir və xərclərin kapitalda tanınması halları istisna olmaqla gəlir və xərclər mənfəət və zərər haqqında hesabatda tanınır. Qeyd edək ki, silmə zamanı kapitalda tanınmış gəlir və xərclər bölüşdürülməmiş mənfəətə köçürülür.

Maliyyə öhdəlikləri kimi xarakterizə olunan kreditor borcları ilkin olaraq ədalətli dəyəri ilə, daha sonra isə qalıq dəyəri ilə əks olunurlar.

**Nağd pul vəsaitləri və onların ekvivalentləri**

Pul vəsaitlərinin hərəkəti haqqında hesabatın hazırlanması məqsədi ilə nağd pul vəsaitləri və onların ekvivalentlərinə kassa, bank hesablarındakı pullar və hər hansı yetişmə dövrü 3 ay və ondan daha az müddətədək olan və istifadəsinə məhdudiyyət qoyulmayan hesablara aid edilir.

## 4. UZUNMÜDDƏTLİ MADDİ VƏ QEYRİ-MADDİ AKTİVLƏR

| | Bina, tikili və qurğular | Maşınlar və avadanlıq | Nəqliyyat vasitələri | Digər əsas vəsaitlər | Qeyri-maddi aktivlər | Cəmi |
|---|---|---|---|---|---|---|
| **1 yanvar 2023-cü il tarixinə xalis dəyəri** | **1 674 980** | **299 821** | **90 712** | **60 160** | | **2 125 673** |
| Əlavələr | - | - | - | - | - | - |
| Silinmələr | - | - | - | - | - | - |
| Silinmələrin yığılmış amortizasiyası | (419 782) | (24 221) | (44 912) | (7 786) | - | (496 701) |
| Köhnəlmə və amortizasiya xərci | (6 000) | (3 500) | (5 100) | - | - | (14 600) |
| 31 dekabr 2023-cü il tarixinə ilkin dəyər | 1 674 980 | 299 821 | 90 712 | 60 160 | - | 2 125 673 |
| 31 dekabr 2023-cü il tarixinə dəyər yığılmış amortizasiya | (425 782) | (27 721) | (50 012) | (7 786) | - | (511 301) |
| **31 dekabr 2023-cü il tarixinə xalis dəyəri** | **1 249 198** | **272 100** | **40 700** | **52 374** | **-** | **1 614 372** |
| Əlavələr | - | 4 308 | - | 1 000 | 754 | 6 062 |
| Silinmələr | - | - | - | - | - | - |
| Silinmələrin yığılmış amortizasiyası | | | | | | - |
| Köhnəlmə və amortizasiya xərci | (49 968) | (11 518) | (1 723) | (2 442) | - | (65 650) |
| 31 dekabr 2024-cü il tarixinə ilkin dəyər | 1 674 980 | 304 129 | 90 712 | 61 160 | 754 | 2 131 735 |
| 31 dekabr 2024-cü il tarixinə dəyər yığılmış amortizasiya | (475 750) | (39 238) | (51 735) | (10 228) | - | (576 951) |
| **31 dekabr 2024-cü il tarixinə xalis dəyəri** | **1 199 230** | **264 890** | **38 977** | **50 933** | **754** | **1 554 784** |

2024-cü il ərzində 6 062 azn dəyərində kapital xarakterli xərclər olmuşdur.

Torpaq, tikili və avadanlıqlar ilkin dəyərlə, yığılmış amortizasiya və müəyyən olunmuş qiymətdəndüşmə üzrə zərərlər çıxılmaqla uçota alınır. İlkin dəyərə alış qiyməti, rüsumlar, tariflər və onların müəssisə rəhbərliyinin istədiyi vəziyyətə və lazımi istismar yerinə gətirilməsi ilə bağlı birbaşa xərclər daxildir. Uzunmüddətli aktivlər faydalı istifadə müddətləri üzrə azalan qalıq dəyəri metodu ilə amortizasiya olunur.

Balansda torpaq yoxdur, uzunmüddətli aktivlər balansda ilkin dəyərdən dövr üzrə yığılmış amortizasiya çıxılmaqla əks etdirilir.

## 5. PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ

Pul vəsaitlərinin hərəkəti haqqında hesabatın hazırlanması məqsədi ilə nağd pul vəsaitləri və onların ekvivalentlərinə kassa, bank hesablarındakı pullar və hər hansı yetişmə dövrü 3 ay və ondan daha az müddətədək olan və istifadəsinə məhdudiyyət qoyulmayan hesablara aid edilir.

31 dekabr 2024-cü il tarixdə Komitənin təqdim olunmuş bank hesabında nəğd pul vəsaiti qalığı 102 521 azn ekvivalentində olmaqla 67 835.93 azn, 39788.09 usd və 4595.41 eur olmuşdur.

2024-cü ilin əvvəli 189 868 azn dəyərində sərbəst pul vəsaiti balans qalığında olmuşdur.

## 6. KAPİTAL

31 dekabr 2024-cü il tarixinə müəssisənin cəmi kapitalı 1 554 363 manat təşkil etmişdir.

## 7. QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR

Qısamüddətli öhdəliklər, Komitənin əməliyyat dövrü ərzində yerinə yetirməyi gözlədiyi maliyyə cari öhdəlikləridir. Bu öhdəliklər alınmış avanslar, vergi və sair məcburi öhdəliklər, sosial sığorta və təminat üzrə olan borclar və digər kreditor öhdəliklərindən ibarətdir. Ötən illə müqayisədə qısamüddətli aktivlərdə 87 346 azn azalma omuşdur.

## 8. ƏSAS ƏMƏLİYYAT GƏLİRLƏRİ

Komitənin 31 Dekabr 2023-cü il tarixdə bitən il üzrə fəaliyyətdən gəliri 56 346 516 AZN olmuşdur. 31 Dekabr 2023-cü il tarixə defisit 14 600 AZN olmuşdur.

31 Dekabr 2024-cü il tarixdə bitən il üzrə isə müvafiq gəliri 2 537 241 AZN olmuşdur. 31 Dekabr 2024-cü il tarixə net defisit 60 009 AZN olmuş və kapitaldan qarşılanmışdır. İdarə heyəti gələcək ilin nəticələri üçün nikbindir və Komitənin fəaliyyətini təkmilləşdirməyə ümid edirlər.

## 9. XƏRCLƏR BARƏDƏ

| Xərclərin istiqamətləri | 2024-cü il |
|---|---|
| Əmək haqqı | 542 390.90 |
| Sosial sığorta xərcləri | 119 314.98 |
| Sosial sığorta xərcləri | 2 153.26 |
| Sosial sığorta xərcləri | 10 846.82 |
| Bank xidməti üzrə xərclər | 2 577.04 |
| Elektrik xərci | 4 418.70 |
| Su və kanalizasiya | 1 040.00 |
| Ezamiyyət xərci | 4 643.83 |
| Qaz xərci | 4 606.50 |
| Yanacaq xərci | 12 235.61 |
| Rabitə xərcləri | 1 557.86 |
| İnternet xərci | 13 188.51 |
| Sığorta üzrə xərclər | 1 398.95 |
| Poçt xidməti üzrə xərc | 1 819.08 |
| Sair xərclər | 16 783.25 |
| Mühafizə xidmətləri üzrə xərc | 53 177.88 |
| **Yekun** | **792 153.17** |

## 10. ƏLAQƏLİ TƏRƏFLƏRLƏ ƏMƏLİYYATLAR

Hazırkı maliyyə hesabatlarının hazırlanması məqsədləri üçün tərəflər o zaman əlaqəli hesab olunur ki, tərəflərdən biri digərinə nəzarət edə bilsin, onunla eyni qrupun nəzarəti altinda olsun və ya maliyyə təsərrüfat fəaliyyəti ilə bağlı məsələlər üzrə qərar qəbul edərkən ona təsir göstərə bilsin. Əlaqəli tərəflər arasındakı münasibətləri nəzərə alarkən həmin münasibətlərin hüquqi forması deyil, iqtisadi məzmununa diqqət yetirilir.

## 11. RİSKLƏRİN İDARƏ OLUMASI VƏ DAXİLİ NƏZARƏT SİSTEMİ

Komitə davamlılığa, məşğulluğa və əlavə gəlirliliyə nail olmaq üçün risklərin idarə olunmasına böyük əhəmiyyət verir. Risklərin idarə edilməsinin strukturu riskləri müəyyən edir, qiymətləndirir, idarə edir və risklər haqqında ardıcıl və etibarlı əsasda hesabat verir. Əsas risklərə kredit, bazar (likvidlik, faiz dərəcəsi və xarici valyuta məzənnələri) və əməliyyat riskləri daxildir.

Rəhbərlik daxili nəzarət sisteminin mövcudluğuna və onun davamlı səmərəliliyinin yoxlanılmasına cavabdehlik daşıyır. Yuxarıdakıları nəzərə alaraq, Komitə idarəetmə və informasiya sistemləri vasitəsi ilə davamlı olaraq riskləri nəzərdən keçirir.

## 12. BALANS TARİXİNDƏN SONRAKI HADİSƏLƏR

Rəhbərliyin fikrincə, maliyyə ilinin sonundan maliyyə hesabatlarının hazırlandığı tarixədək olan dövrdə Komitənin bitmiş maliyyə ilinin əməliyyatlarına əhəmiyyətli təsir göstərə biləcək hər hansı əhəmiyyətli və qeyri-adi əməliyyat və hadisə baş verməmişdir.